# RUBRİK: QİYMƏTLƏNDİRMƏDƏ TƏTBİQİ

Məktəbdaxili qiymətləndirmənin təşkili zamanı istifadə olunan üsul və vasitələrdən biri də rubriklərdir. Rubrik qiymətləndirmə cədvəli şagird nailiyyətini, fəaliyyətini və bacarığını meyarlara əsaslanaraq ölçmədə istifadə olunur. Kurikulum standartlarının reallşadırılmasında rubriklərdən istifadənin məqsədi şagirdlərin fərdi öyrənmə ehtiyaclarını müəyyənləşdirmək, onların akademik, sosial-emosianal inkişaf dinamikasının izləmək və sinifdaxili tapşırıqlarda, layihələrdə, inkişafetdirici (konstruktiv) rəylərdə ədalətli, etibarlı, obyektiv qiymətləndirməni təmin etməkdir. Formativ qiymətləndirmə zamanı rubrikdən istifadənin məqsədi "şagird fəaliyyətinin" ölçüməsidirsə, summativ qiymətləndirmədə isə "şagird nailiyyətinin" ölçülməsidir.

Rubriklər şagird düşüncələrini "mən nə öyrənmişəm?" sualından "mən bunu nə qədər yaxşı öyrənmişəm?" sualına dəyişməyə təşviq edir. Həmçinin şagird rubriklər vasitəsilə tapşırıqlara qoyulan tələbləri əvvəlcədən görür, öz zəif tərəflərini aşkarlayır, qəanətbəxş olmadığı sahələrə yenidən nəzər salır və üzərində daha çox işləməyi hədəfləyir.

***Rubrik cədvəli hazırlayarkən hansı göstəricilər nəzərə alınmalıdır?***

1. **Məqsəd müəyyənləşdirilir.** Müəllim rubrik hazırlayarkən şagirdin təlim prosesində nümayiş etdirdiyi fəaliyyətini, bacarığını, biliyini nəzərə alaraq məqsəd müəyyənləşdirir. Fəaliyyət səviyyələrini ölçməklə hansı təlim nəticəsinə çatmalı olduğunu əvvəlcədən planlaşdırır. "Mən nəyi ölçürəm yaxud qiymətləndirirəm?", "Təhsilalanların ehtiyacları nələrdir?", "Şagird hanısı bilik və bacarıqları qazanıb?", "Şagird daha nələri öyrənməlidir?" və. s kimi suallar da məqsəd seçilə bilər.

   Qiymətləndirmə cədvəlləri istənilən fənn məzmununa uyğun olaraq hazırlana bilər.

2. **Qiymətləndirmə meyarları müəyyənləşdirilir.** Meyar bir şeyə qiymət vermək üçün əsas götürülən əlamət və ölçüdür. Bu meyarlar şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün nəzərdə tutulmuş məzmun standartlarının tələblərinə uyğun olmalıdır. Meyarlar qiymətləndirilən yaxud dəyərləndirilən şagird fəaliyyətinin aspektlərini müəyyən edir. Müəllimlərin nə axtardığına dair

bələdçi rolunu oynayır. Meyarlar şagirdlərin tapşırıq üzərində işləyərkən izləmələri üçün məntiqi ardıcıllıqla və başa düşülən formada yazılmalıdır.

3. **Fəaliyyət səviyyələri yazılır.** Şagirdin fəaliyyəti hansı səviyyələrə görə qiymətləndiriləcəksə, bu həm ədədlə , həm sözlə yazıla bilər. Bunun üçün vahid qayda mövcud deyil. Məsələn;
    - 2, 3, 4, 5
    - Zəif, orta, qənaətbəxş, mükəmməl
    - Başlanğıc, inkişaf edən, yetkin, nümunəvi
    - Təcrübəsiz, şəyird, səriştəli, usta
4. **Deskriptorlar (təsvirlər) aydınlaşdırılır.** Yəni şagirdin fəaliyyəti bacarıq səviyyəsinə görə şkalalarla təsvir edilir. Fəaliyyətlər açıq verilməlidir və şagirdlərdən nə gözlənildiyi dəqiq göstərilməlidir. Deskriptorlar hər bir meyar üçün hər bir performans səviyyəsini (dərəcəsini) təsvir edir. Deskriptorlar müxtəlif səviyyələri fərqləndirmək, qiymətləndirmək və obyektivliyi artırmaq üçün kifayət qədər ətraflı olmalıdır.
5. **Yekun qiymət verilir:** Formativ qiymətləndirmə zamanı rubriklərdən istifadə şagirdin təlim inkişafının izlənilməsinə, yeni bacarıqalar qazanılmasına, təhsil ehtiyaclarını müəyyənləşdirilməsi və onların aradan qaldırılmasına xidmət edir. Bu səbəblə şagird nəticələri qeyri-formal xarakter daşıyır. Summativ qiymətləndirmə zamanı isə rubrikdən istifadə şagird nəaliyyətinə təsir edir. Nəticə qeyd olunur.

***Aşağıdakı cədvəldə rubrikin sadə təsviri verilmişdir. (c.1)***

| **Fəaliyyət səviyyələri/qiymət** → <br> **Meyarlar** (nümunə) ↓ | **Zəif (2)** | **Orta (3)** | **Qənaətbəxş (4)** | **Mükəmməl (5)** |
|---|---|---|---|---|
| 1. Oxuyub-anlama, | | | | |
| 2. Tənqidi düşüncə | | | | |
| 3. Sinif davranışları | | Təsvirlər | | |
| 4. Riyazi bacarıqlar | | (Deskriptor) | | |

Dərəcəli qiymətləndirmə şkalası sayılan rubriklər ***analitik və holistik*** olmaqla iki yerə ayrılır.

Holistik qiymətləndirmə cədvəli şagird nailiyyətini hissələrə bölmədən ümumi təsvir edir. Hazırlanmasında matrislərdən (2-3 sütunlu cədvəl) istifadə olunur. Bu matrislərdə fəaliyyət səviyyələri və ya qiymətlər sol sütuna, meyarlar isə sağ sütuna yazılır.

***Holistik rubrikin xüsusiyyətlərini aşağıdakı kimi səciyyələndirə bilərik:***

- ✓ Şagird fəaliyyəti bütünlüklə qiymətləndirilir;
- ✓ Hazırlanması az vaxt tələb edir;
- ✓ Sürətlidir;
- ✓ Praktikdir;
- ✓ Günlük və rüb sonu tapşırıqları üçün uyğundur;
- ✓ Əsasən kiçikyaşlı məktəblilərin qiymətləndirilməsində istifadə olunur.

Holistik rubrikin ***mənfi tərəfi*** ondan ibarətdir ki, şagirdin fəaliyyəti haqqında ətraflı məlumat almaq və əskiklərini tamlıqla görmək mümkün olmur.

***Cədvəl 2. Holistik rubrik***

| **Fəaliyyət səviyyəsi/ qiymət** | **Meyar:** Cümlənin sintaktik qruluşu |
|---|---|
| **Mükəmməl (5)** | Söz birləşmələrinin növlərini bilir, cümlənin baş və ikinci dərəcəli üzvlərini ayırır. |
| **Qənaətbəxş (4)** | Söz birləşmələrinin növlərini bilir. Cümlənin baş üzvlərini haqda doğru anlayışa sahibdir, ikinci dərəcəli üzvlərini ayırmaqda bəzən çətinlik çəkir. |
| **Orta (3)** | Söz birləşmələrinin növlərini qismən ayırır. Cümlənin baş üzvlərini və ikinci dərəcəli üzvlərini ayırmaqda çətinlik çəkir. |
| **Zəif (2)** | Söz birləşmələrinin növlərini bilmir. Cümlənin baş üzvləri və ikinci dərəcəli üzvləri haqqında anlayışı zəifdir. |

Həmçinin sinifdaxili layihələrin və təqdimatların hazırlanması zamanı şagirdlərə fəaliyyət səviyyələrini və meyarları aydın izah edən holistik cədvəllər verin. Belə olan halda, şagirdlər tapşırığın həlli zamanı göstərdikləri səriştələrin sonda necə qiymətləndiriləcəyini əvvəlcədən görür və daha məsuliyyətli olmağı hədəfləyir. Şagird müəllimə "Mən harada səhv etmişəm?" "Nəyi düz yazmamışam?" və ya "Mən niyə bu qiyməti almışam?" kimi suallar ünvanlamır.

***Cədvəl 3. Holistik rubrik***

| ***Fəaliyyət səviyyəsi/ qiymət*** | ***Meyar : Vaxtın idarə edilməsi*** |
|---|---|
| ***Mükəmməl (5)*** | • Vaxtı səmərəli şəkildə idarə edir.<br>• Tapşırıqları vaxtından əvvəl həll edir.<br>• Təyin olunan son saata və tarixə riayət edir. |
| ***Qənaətbəxş (4)*** | • Vaxtı səmərəli şəkildə idarə etməyə çalışır.<br>• Tapşırıqları vaxtında həll edir.<br>• Təyin olunan son saat və tarixlərin xatırladılmasına ehtiyac duyur. |
| ***Zəif (3)*** | • Vaxtın idarə edilməsində zəifdir.<br>• Tapşırıqları vaxtında həll etməyə səy göstərsə də, gecikir.<br>• Təyin olunan son saata və tarixlərə riayət edə bilmir. |

***Analitik rubrik*** holistik rubrikə nəzərən həm hazırlanması, həm də şagird fəaliyyətin daha detallı şəkildə ölçülməsi baxımından uzun zaman tələb edən qiymətləndirmə üsuludur. Hazırlanması zamanı cədvəldən istifadə olunur.

***Analitik rubrikin aşağıdakı səciyyəvi xüsusiyyətləri vardır:***

- ✓ Şagird fəaliyyəti ətraflı qiymətləndirilir;
- ✓ Hər bir meyar (ölçü, əlamət) ayrıca qiymətləndirilir;
- ✓ Çox vaxt tələb edir;
- ✓ Müəllimə diaqnostik məlumat verir;
- ✓ Şagirdə formativ rəy verir;

- ✓ Keyfiyyətlidir, obyektivdir;
- ✓ Yeniyetmə şagirdlərin qiymətləndirilməsi üçün müvafiqdir.

Analitik qiymətləndirmənin ***mənfi tərəfi*** ondan ibarətdir ki, daha uzun vaxt tələb edir və yavaşdır. Lakin sinifdaxili tədrisin inkişaf dinamikasını və şagirdlərin öyrənmə əskikliklərini müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir.

***Cədvəl 4. Analitik rubrik***

| ***Meyar: Sintaksis bölməsi*** | | ***Zəif*** ***2 (50-59)*** | ***Orta*** ***3 (60-69%)*** | ***Qənaətbəxş*** ***4 (70-79%)*** | ***Mükəmməl*** ***5 (80-100%)*** |
|---|---|---|---|---|---|
| ***Alt meyarlar*** | ***Söz birləşmələrinin növləri*** | Söz birləşmələrin növlərini bilmir, tapşırıqların həllində səhvə yol verir. | Söz birləşmələrinin bəzi növlərini ayırmaqda çətinlik çəkir, tapşırıqların həllində qismən səhvə yol verir. | Söz birləşmələrinin növlərini bilir, tapşırıqların həlli zamanı cüzi səhvə yol verir. | Söz birləşmələrinin növlərini bilir, tapşırıqları səhvsiz yerinə yetirir. |
| | ***Cümlənin məqsəd və intonasiyaya görə növləri*** | Cümlə növlərindən sadəcə birini bilir, tapşırığın həllində səhvə yol verir. | Cümlənin növlərini qismən bilir, tapşırıqların həllində çətinlik çəkir. | Cümlənin növlərini bilidiyi halda, tapşırıqlar zamanı səhvə yol verir. | Cümlənin növləri haqqında məlumatlıdır, tapşırıqları doğru yerinə yetirir. |
| | ***Cümlənin baş üzvləri*** | Mübtəda və xəbər haqqında bilikləri zəifdir. Əlavə dəstəyə ehtiyacı var. | Cümlənin xəbərini müəyyənləşdirsə də, mübtədanı ayıra bilmir. | Mübtəda və xəbər haqqında bilikləri yaxşıdır, cuzi səhvlərə yol verir. | Mübtəda və xəbər haqqında bilikləri mükəmməldir. |
| | ***Cümlənin ikinci dərəcəli üzvləri*** | Tamamlıq, təyin və zərflik mövzusunu tam qavraya bilməyib. | Cümlədə tamamlıq və təyini müəyyən etsə də, zərfliyi ayıra bilmir. | Tamamlıq, təyin və zərfliyi seçərkən cüzi çətinlik çəkir. | Tamamlıq, təyin və zərflik mövzusunu mükəmməl öyrənib. |
| | ***Sintaktik təhlil*** | Sintaktik təhlil etməkdə çətinlik çəkir. | Sintaktik təhlildə qismən səhvə yol verir. | Sintaktik təhlil qənaətbəxşdir. | Sintaktik təhlil əladır. |
| | ***Yekun qiymət*** | | | | |

Summativ qiymətləndirmə zamanı analitik rubrikdən istifadə etdikdə aspektə əsasən hər deskriptora uyğun fəaliyyət səviyyəsi üzrə verilmiş xallar toplanır və meyarın sayına bölünərək ortalaması çıxarılır. Məsələn; 5+5+4+4+3=21:5

Qeyd etdiyimiz kimi, fənlər üzrə analitik və holistik rubriklərin tək-tək hazırlanması əlavə vaxt və iş gücü tələb edir. Müəllimlər bu zaman fərqli rəqəmsal alətlərdən istifadə edərək, rubrikləri daha asan və surətli şəkildə hazırlaya bilərlər. Bunun üçün həmin veb saytarda qeydiyyatdan keçmək və məzmun daxil etmək kifayətdir. Hazırlanan rubrikləri yaddaşda saxlmaq və çap etmək mümkündür. **Rubistar**, **Quick Rubik**, **Rubric Generator**, **OrangeSlice: Teacher Rubic**, **Rubric Maker** (linklərin üzərinə sıxaraq səhifəyə keçid edə bilərsiniz) formatda olan veb saytlardan istifadə müəllimlər üçün faydalı olacaqdır.

Müəllimlər **Teach-nology** saytından rubriklərin hazırlanması ilə yanaşı, müxtəlif mövzulara aid resursların əldə olunması üçün istifadə edə bilərlər.

Nəticə olaraq qeyd edə bilərik ki, rubriklər həm şagirdlərin, həm də müəllimlərin tədris prosesindəki gözləntilərini dəqiqləşdirmək və inkişaf etdirək baxımından olduqca əhəmiyyətli qiymətləndirmə vasitəsidir.

**Ədəbiyyat siyahısı:**


1. http://www.fenegitimi.com/performans/pdf/Analitik.pdf
2. https://www-queensu-ca.translate.goog/teachingandlearning/modules/assessments/35_s4_05_types_of_rubrics.html?_x_tr_sl=auto&_x_tr_tl=en&_x_tr_hl=en-US&_x_tr_pto=wapp
3. https://drive.google.com/file/d/1RT74drmMpS4ayuVaGeWlAzm8XtPNYvxp/view



**Xanım Əsədova**

**ARTİ-nin Təhsilverənlərin peşəkar inkişafı mərkəzinin aparıcı mütəxəssisi**